


İnstitusional güc və inteqrasiya strategiyası

# Diplomatik liderliyin təntənəsi

**Qlobal geosiyasi düzənin yenidən formalaşdığı, regional güc balanslarının dəyişdiyi bir dövrdə Azərbaycanın strateji mövqeyi institusional və diplomatik müstəvidə daha aydın şəkildə görünür. Artıq dövlətlərin gücü yalnız hərbi və ya enerji potensialı ilə deyil, onların sabitlik yaratmaq, dialoq qurmaq, postmünaqişə reallıqlarını sülh və əməkdaşlığa çevirmək bacarığı ilə ölçülür. Məhz bu kontekstdə Azərbaycanın Xankəndidə İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT/ECO) XVII Zirvə Görüşünə ev sahibliyi etməsi çoxsaxəli siyasi və iqtisadi strategiyanın kulminasiya nöqtələrindən biri kimi çıxış edir.**

Bu beynəlxalq tədbirin Qarabağın mərkəzində, uzun illər işğal altında qalmış Xankəndidə keçirilməsi Azərbaycanın həm siyasi, həm də iqtisadi suverenliyinin təntənəsi olmaqla yanaşı, regionun gələcəyinə dair yeni çağırışlara cavabdır. Qeyd etmək lazımdır ki, İƏT-in 16-cı Zirvə Görüşü 2023-cü il noyabrın 9-da Özbəkistanın paytaxtı Daşkənd şəhərində keçirilib.

Bu il isə İƏT Zirvəsinin Xankəndidə keçirilməsi Azərbaycanın münaqişədən sonrakı dövr siyasətində, yeni ərazilərin bərpası, iqtisadi reabilitasiya və beynəlxalq əməkdaşlığın genişləndirilməsi kontekstində atdığı ardıcıl addımların nəticəsidir. Sammitin gündəliyi yalnız enerji və ticarət məsələləri ilə məhdudlaşmır, dayanıqlı inkişaf, iqlim dəyişmələrinə qarşı mübarizə, innovasiya və rəqəmsallaşma kimi müasir dövrün əsas çağırışları İƏT-ə üzv ölkələrin gündəmində ön plana çəkilir. Azərbaycanın əsas təşəbbüsləri sırasında regionda vahid gömrük və logistika platformalarının yaradılması, enerji dualizmi, yəni həm fosil, həm də "yaşıl enerji"nin paralel inkişafı, eləcə də süni intellekt texnologiyalarının tətbiqi ilə risk analizlərinin təkmilləşdirilməsi kimi məsələlər var. Sammit çərçivəsində Ağdamda Gənclər, Şuşada Biznes və Laçında Qadınlar Forumları vasitəsilə Azərbaycan Qarabağı yeni iqtisadi laboratoriyaya çevirmək strategiyasını sistemli şəkildə reallaşdırır. Bu baxımdan, Ağdamda iyulun 1-də keçirilən İƏT-in Gənclər Forumu innovasiya və startap ekosistemlərinin dəstəklənməsi, həmçinin "yaşıl peşələr"in təşviqi ilə bölgədə insan kapitalının gücləndirilməsini hədəfləyir. Bu, həm də gənclərin regionda fəaliyyət göstərmələrini təşviq edəcək. Bu gün Şuşada təşkil olunan Biznes Forumu azad edilmiş ərazilərə investisiya axınının artırılmasına xidmət edəcək. Burada kiçik və orta bizneslər üçün "bir pəncərə" sistemi, güzəştli kredit mexanizmləri və ekoloji investisiya təşviqləri müzakirə olunacaq. Eyni zamanda bu gün Laçında keçirilən Qadınlar Forumu isə bölgədə gender əsaslı inkişaf modelinin formalaşmasına yönəlib. Qadınların iqtisadi və sosial təşəbbüslərdə iştirakı, xüsusilə sosial sahibkarlıq layihələrinin artırılması regionda inklüzivlik baxımından strateji önəm daşıyır.

Bu ayın 3-4-də Azərbaycanın Xankəndi şəhərində keçiriləcək İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO/İƏT) XVII Zirvə Toplantısı Azərbaycanın növbəti diplomatik uğuru olmaqla yanaşı, həm də münaqişədən sonrakı dövrdə Qarabağın iqtisadi, siyasi və humanitar cəhətdən yenidən qurulması prosesində yeni mərhələyə keçidi ifadə edir.

Ölkəmiz ECO-nun ən fəal üzvlərindən biridir. Təşkilatın əsas məqsədi ortaq tarixi, mədəni və iqtisadi bağlara malik üzv ölkələr arasında əməkdaşlığı gücləndirmək, regional iqtisadi inteqrasiyanı təşviq etməkdir. 13 ölkə liderinin iştirakı gözlənilən sammitdə iqtisadi əlaqələrin genişləndirilməsi, rəqəmsal ticarət, enerji təhlükəsizliyi və iqlim dəyişmələrinə qarşı birgə tədbirlər müzakirə olunacaq. Azərbaycan ECO çərçivəsində bir çox təşəbbüslərin müəllifi kimi çıxış edir. 2021-ci il noyabrın 28-də Aşqabadda keçirilən XV Zirvə Toplantısında Prezident İlham Əliyevin iştirakı ilə qəbul olunmuş "Aşqabad fəaliyyət konsensusu" adlı yekun Bəyannamədə Azərbaycanın ərazi bütövlüyünə dəstək ifadə olunmuşdu. Bu sənəd ECO-nun Azərbaycanın maraqlarına və regional sabitliyə verdiyi önəmin bariz göstəricisidir. Ölkə başçımız Zirvə Toplantısında deyib: "Azərbaycan İƏT-in fəal üzvüdür. İƏT-ə üzv dövlətlərlə münasibətlərimiz dostluq və qarşılıqlı hörmətə əsaslanır. Biz, həmçinin beynəlxalq platformalarda, o cümlədən İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində İƏT-ə üzv dövlətlərlə səmərəli əməkdaşlıq edirik".

Xankəndidə keçiriləcək sammit yalnız iqtisadi əməkdaşlıq platforması kimi deyil, eyni zamanda siyasi simvol kimi də qiymətləndirilməlidir. Burada iştirak edəcək dövlətlərin bir çoxu illərdir ki, Qarabağ məsələsində Azərbaycanın ərazi bütövlüyünə açıq dəstək nümayiş etdiriblər. Bu, həm də göstərir ki, beynəlxalq təşkilatlar və regional ittifaqlar Azərbaycanın suveren hüquqlarına hörmət əsasında əməkdaşlığı inkişaf etdirirlər. Qeyd edək ki, 1964-cü ildə İran, Pakistan və Türkiyə tərəfindən yaradılan İnkişaf üçün Regional Əməkdaşlıq Təşkilatı (İRƏ) soyuq müharibə sonrası çoxqütblü mühitə uyğunlaşaraq 1985-ci ildən İqtisadi Əməkdaşlıq Təşkilatına (ECO) çevrildi. 1992-ci ildə postsovet məkanından səkkiz ölkənin, o cümlədən Azərbaycanın təşkilata qoşulması quruma yeni bir nəfəs qazandırdı. Bu gün Tehranda mənzil-qərargahı olan ECO-nun 10 üzv ölkədə 566,8 milyon nəfər əhalisi var. 3,8 trln. dollarlıq ÜDM-ə malikdir. Azərbaycan ECO-nun geniş istehlakçı və tranzit potensialını Qarabağda konkret layihələrə yönəldərək göstərir ki, postmünaqişə reallıqlarında inklüziv inkişaf və geopolitik sabitlik bir-birini tamamlayır. Ölkəmizin ECO-da fəal rolu və təşkilata verdiyi dəstək Zirvə toplantısının uğurlu olmasına zəmin yaradır. Həmçinin, Qarabağın incisi Şuşa şəhərinin 2026-cı il üçün İslam Əməkdaşlıq Təşkilatının mədəniyyət paytaxtı seçilməsi ərazidə turizm və mədəniyyət sahələrinin inkişafına töhfə verəcək. Zirvə toplantısı Azərbaycanın regionda sülh, təhlükəsizlik və dayanıqlı inkişaf sahələrini gücləndirmək məqsədi daşıyır və bu, olduqca vacibdir.

XVII İƏT Zirvəsi Azərbaycanın regional lider və etibarlı tərəfdaş kimi artan rolunu bir daha sübut edir. Bu sammit təkcə iqtisadi məsələlərin deyil, həm də humanitar və sosial inkişafın, innovasiyanın və gender bərabərliyinin müzakirə olunduğu geniş platformaya çevriləcək.

Ölkəmizin yüksələn nüfuzunun daha bir göstəricisi bu ilin oktyabr ayında növbəti mühüm beynəlxalq tədbirə Türk Dövlətləri Təşkilatının (TDT) Zirvə Görüşünə ev sahibi seçilməsidir. Bakıda baş tutacaq sammit həm Türk dünyasının gələcək strateji yol xəritəsinin müəyyənləşdirilməsi, həm də təşkilat daxilində iqtisadi və institusional inteqrasiyanın dərinləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Əvvəllər Türk birliyi anlayışı daha çox mədəni, dil və mənəvi yaxınlıq əsasında formalaşmış ideya kimi qiymətləndirilirdisə, bu gün artıq konkret mexanizmlərlə güclənən strateji əməkdaşlıq sisteminə çevrilir. TDT-nin real güc olaraq çıxış etməsi son illərdə baş verən geosiyasi dəyişikliklər və üzv dövlətlər arasında münasibətlərin sistemli şəkildə dərinləşməsi fonunda reallaşıb. Xüsusilə Azərbaycanın təşəbbüsləri və lider rolu TDT-nin real regional güc mərkəzinə çevrilməsini təmin edən amillərdəndir. Bakı Zirvəsi bu baxımdan Türk inteqrasiyasının yeni mərhələsi kimi qiymətləndirilə bilər.

Sammit çərçivəsində Türk dövlətlərinin ticarət və sənaye birliyi ilə bağlı sənədlərin imzalanması gözlənilir. Bu da təşkilat daxilində iqtisadi inteqrasiyanın daha sistemli və koordinasiyalı həyata keçirilməsini təmin edəcək. Zirvənin iqtisadi gündəminin digər vacib komponenti isə Orta Dəhliz üzrə yükdaşımaların tariflərinin unifikasiyası ola bilər. Hazırda bu dəhliz, yəni Çin, Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyə üzərindən Avropaya uzanan logistika marşrutu çoxsaylı tranzit ödənişləri və koordinasiya çatışmazlıqları səbəbilə tam fəaliyyət göstərə bilmir. Bu baxımdan, tariflərin vahidləşdirilməsi və rəqəmsal tranzit sistemlərinin qurulması daşımaların sürətini artıracaq, xərcləri azaldacaq, Orta Dəhlizi Çin-Avropa marşrutunda rəqabətqabiliyyətli dəhlizə çevirəcək.

Bakı 2025 Zirvə Görüşü həm də türk dünyasının inteqrasiya istiqamətində tarixi bir mərhələyə keçidin simvoludur. Türk Ticarət və Sənaye Platformasının yaradılması, gömrük və tranzit mexanizmlərinin uyğunlaşdırılması, vahid tarif rejimlərinin tətbiqi - bütün bunlar Türk dövlətlərini vahid iqtisadi məkan olaraq formalaşdırmağa yönəlmiş strateji addımlardır. Azərbaycan isə bu prosesin önündə gedən, təşəbbüskar və lider dövlətdir. Bu liderlik diplomatik və siyasi iradə, konkret layihələr, strukturlaşmış əməkdaşlıq mexanizmləri və strateji düşüncə ilə gerçəkləşir.

**Ləman TƏHMƏZ,**
**"Respublika".**

Respublika .- 2025.- 2 iyul (№ 132).- S.3.